*Layihə*

**“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild1) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adı aşağıdakı redaksiyada verilsin:

“Sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında”.

1.2. 1-ci hissədə “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə” sözləri, “Sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası” sözləri ilə əvəz edilsin.

1.3. Həmin Qərarla təsdiq edilmiş “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə” yeni redaksiyada verilsin (əlavə olunur).

2. Bu Qərar qüvvəyə mindiyi tarixədək baş vermiş və (və ya) bu tarixdən sonra davam edən sosial sığorta hadisəsinə görə sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi həmin tarixə qüvvədə olan normalara uyğun həyata keçirilir.

3. bu Qərar qüvvəyə mindiyi tarixədək təyin edilmiş və ödənişi davam edən sosial sığorta ödəmələrinin (3 yaşınadək uşağa qulluğa görə müavinət istisna olmaqla) ödənişinin bu Qərarın qüvvəyə minməsi ilə əlaqədar dayandırılmasına, yenidən hesablanmasına yol verilmir.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydanın 8.2-ci bəndinə əsasən sanatoriya-kurort müalicəsi üzrə xərclərin maliyyələşdirilməsinə dair müqavilənin 3 ay müddətində bağlanmasını təmin etsinlər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, ___ _________ 2024-cü il
№ _____

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2024-cü il _____________, ____ nömrəli qərarı
ilə yeni redaksiyada verilmişdir.

**Sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi**

**QAYDASI**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qayda "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 16-cı maddəsinə və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 74-cü maddəsinin qeydinə əsasən hazırlanmışdır və məcburi dövlət sosial sığortası üzrə (əmək pensiyaları və könüllü (əlavə) sosial sığorta əsasında əmək pensiyalarına əlavələr istisna olmaqla) ödəmələrin (bundan sonra - sosial sığorta ödəmələri) və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi qaydasını müəyyən edir.

1.2. Sosial sığorta ödəmələri, Qanunla nəzərdə tutulmuş sosial sığorta hadisələri baş verdiyi tarixə məcburi dövlət sosial sığortasına cəlb olunan sığortaolunanlara Qanunun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasına uyğun olaraq sığortaedənin fəaliyyəti olduğu dövrdə verilən pul ödənişidir.

1.3. Bu Qayda ilə tənzimlənən sosial sığorta ödəmələri aşağıdakılardır:

1.3.1. əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət (qanunvericiliklə müəyyən olunmuş dövr üçün);

1.3.2. hamiləliyə və doğuşa görə müavinət;

1.3.3. uşağın anadan olmasına görə birdəfəlik müavinət;

1.3.4. 3 yaşınadək uşağa qulluğa görə müavinət;

1.3.5. dəfn üçün birdəfəlik müavinət;

1.3.6. sığortaolunanların sanatoriya-kurort müalicəsi üzrə xərclərinin tam və ya qismən ödənişi.

1.4. Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na əsasən həyata keçirilir.

1.5. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət və hamiləliyə və doğuşa görə müavinət almaq hüququ ən azı 6 ay sosial sığorta stajı olan şəxslərə şamil edilir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə və hamiləliyə və doğuşa görə müavinətləri almaq hüququ olan sığortaolunanlara həmin müavinətlər təyin edilərkən sosial sığorta stajı kimi sığortaolunanın xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddəti nəzərə alınır. Digər sosial sığorta ödəmələri (əmək pensiyası istisna olmaqla) təyin edilərkən qanunvericiliyə uyğun olaraq sosial sığorta stajı tələb edilmir.

1.6. Bu Qaydanın 1.3.6-cı yarımbəndində nəzərdə tutulan sosial sığorta ödəməsi istisna olmaqla, sosial sığorta ödəmələri bu Qaydanın məqsədləri üçün zəruri olan məlumatların aidiyyəti dövlət orqanlarının elektron informasiya sistemlərindən əldə olunması mümkün olduqda (bu Qaydanın 1.8-ci bəndi nəzərə alınmaqla) proaktiv təyin edilir.

1.7. Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularına və işçilərinə, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinə və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa

uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərə və şəxslərə sosial sığorta ödəmələrinin hesablanması, təyin edilməsi və verilməsi həmin şəxslərin xidmət etdiyi (və ya işlədiyi) dövlət orqanları tərəfindən bu Qaydaya uyğun olaraq müraciət əsasında həyata keçirilir.

1.8. bu Qaydanın 1.6-cı bəndinə uyğun olaraq proaktiv təyinatın aparılmasının mümkün olmadığı hallarda, habelə aşağıdakı sığortaolunanlara sosial sığorta ödəmələri müraciət əsasında təyin edilir:

1.8.1. Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 8 iyul tarixli 206 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) siyahısı"nda nəzərdə tutulan vəzifələrdə çalışan;

1.8.2. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 6-cı maddəsində nəzərdə tutulan;

1.8.3. Qanunun 14.5-ci maddəsində nəzərdə tutulan;

1.8.4. 2006-cı il yanvarın 1-dək olan dövr daxil olmaqla ümumilikdə 6 aydan az olmamaq şərti ilə 2005-ci il dekabrın 31-dən sonra 6 aydan az sosial sığorta stajı olan.

1.9. Bu Qaydada istifadə olunan anlayışlar Qanunla müəyyən edilən mənaları ifadə edir.

## 2. ƏMƏK QABİLİYYƏTİNİN MÜVƏQQƏTİ İTİRİLMƏSİNƏ GÖRƏ MÜAVİNƏT

2.1. Sığortaolunanlara əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət "Vahid Səhiyyə İnformasiya Sistemi" vasitəsilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (bundan sonra - MEİS) ötürülən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"a uyğun olaraq elektron sənəd formasında tərtib edilmiş xəstəlik vərəqinə dair məlumatlara (bundan sonra – Məlumatlar) əsasən əmək qabiliyyətinin müvəqqəti itirildiyi təqvim günləri üçün verilir.

2.2. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət aşağıdakı hallarda verilmir:

2.2.1. əmək qabiliyyətinin müvəqqəti itirilməsi ödənişsiz, qismən ödənişli sosial, təhsil və yaradıcılıq məzuniyyəti dövründə baş verdikdə;

2.2.2. sığortaolunan qəsdən öz sağlamlığına zərər vurduqda və yaxud özünü yalandan xəstə kimi təqdim etdikdə;

2.2.3. Qanunun 14.5-ci maddəsində göstərilən muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar əmək qabiliyyətinin müvəqqəti itirilməsinin baş verdiyi aydan etibarən əvvəlki son 4 rübün 6 ayına münasibətdə məcburi dövlət sosial sığorta haqqını qanunvericiliklə müəyyən edilmiş məbləğdə ödəmədikdə, əmək qabiliyyətinin müvəqqəti itirilməsinin baş verdiyi tarixə məcburi dövlət sosial sığorta haqqı üzrə borcu olduqda və fəaliyyəti müvəqqəti dayandırıldıqda.

2.3. Qanunun 10-cu maddəsinin ikinci hissəsinin üçüncü abzasına uyğun olaraq bu Qaydanın 2.7-ci bəndində nəzərdə tutulmuş dövrlər üzrə qanunvericiliyə uyğun formada hesabat təqdim edilmədikdə hesabat təqdim edilənədək, eləcə də təqdim edilmiş hesabatda uyğunsuzluq aşkar edildikdə, uyğunsuzluq aradan qaldırılanadək müavinətin verilməsi dayandırılır, bu barədə sığortaçı tərəfindən sığortaedənə və sığortaolunana müvafiq elektron bildiriş göndərilir və həmin dövr üçün hesabat təqdim edildikdən sonra müavinətin verilməsi təmin edilir.

2.4. Əmək qabiliyyətinin müvəqqəti itirilməsi halı Qanunun 10-cu maddəsinini ikinci hissəsinin üçüncü abzasına əsasən hesabat təqdim edilməli dövrdə baş verdikdə, müavinətin verilməsi hesabat təqdim edilən tarixə kimi təxirə salınır.

2.5. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət aşağıdakı subyektlər tərəfindən təyin edilir və ödənilir:

2.5.1. əmək qabiliyyətinin müvəqqəti itirilməsi halı fasiləsiz olaraq ardıcıl davam edərsə, ilk 14 təqvim günü üçün müavinət sığortaedən tərəfindən onun vəsaiti hesabına, qalan günlər üçün isə məcburi dövlət sosial sığorta haqları hesabına sığortaçı tərəfindən;

2.5.2. əmək qabiliyyətinin müvəqqəti itirilməsi halı fasilələrlə davam edərsə, ilk 14 təqvim günü üçün müavinət hər dəfə sığortaedənin vəsaiti, qalan günlər üçün isə məcburi dövlət sosial sığorta haqları hesabına sığortaçı tərəfindən.

2.6. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, əmək qabiliyyətinin müvəqqəti itirildiyi birinci gündən başlayaraq əmək qabiliyyəti bərpa olunanadək, lakin qanunvericiliyə uyğun olaraq bir ildən çox olmayan dövr üçün verilir.

2.7. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət əmək qabiliyyətinin müvəqqəti itirildiyi aydan əvvəlki ardıcıl gələn 4 rübə münasibətdə sığortaolunan üçün ödənilmiş (həmin dövr üçün hesablanmışa uyğun) məcburi dövlət sosial sığorta haqqının dörd mislindən (bundan sonra – qazanc) hesablanır.

2.7.1. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət məbləği aşağıdakı düsturla hesablanır:

**MM = TGS x OQM**

**Burada,**

***müavinətin məbləği (MM)*** *– əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin məbləğini;*

***təqvim günlərinin sayı (TGS)*** *– əmək qabiliyyətinin müvəqqəti itirildiyi dövrdəki təqvim günlərinin sayını;*

***orta qazancın məbləği (OQM)*** *– bir təqvim gününə düşən orta qazancın məbləğini bildirir.*

**OQM = ÜQM / BTG**

**Burada,**

***ümumi qazancın məbləği (ÜQM)*** *– əmək qabiliyyətinin müvəqqəti itirildiyi aydan əvvəlki ardıcıl 4 rüb ərzində sığortaolunanın cəmi qazancının məbləğini;*

***bölən təqvim günləri (BTG)*** *– əmək qabiliyyətinin müvəqqəti itirildiyi aydan əvvəlki ardıcıl 4 rüb ərzindəki bölən təqvim günlərinin sayını bildirir.*

**BTG = ÜTG - ÇTG**

**Burada,**

***ümumi təqvim günləri (ÜTG)*** *– əmək qabiliyyətinin müvəqqəti itirildiyi aydan əvvəlki ardıcıl 4 rüb ərzində cəmi təqvim günlərinin sayını;*

***çıxılan təqvim günləri (ÇTG)*** *– əmək qabiliyyətinin müvəqqəti itirildiyi aydan əvvəlki ardıcıl 4 rüb ərzində bu Qaydanın 2.7.6-ci yarımbəndində göstərilən günlərin sayını bildirir.*

2.7.2. sığortaolunanın əmək qabiliyyətini müvəqqəti itirdiyi aydan etibarən əvvəlki ardıcıl gələn 4 rübdə əmək fəaliyyəti olmamışdırsa, bir təqvim gününə düşən orta gündəlik qazancın məbləği əmək qabiliyyətini müvəqqəti itirdiyi dövrdə minimum aylıq əməkhaqqı məbləğinin əmək qabiliyyətini müvəqqəti itirdiyi aydakı təqvim günlərinin sayına bölünməsi ilə tapılır.

2.7.3. bu Qaydanın 2.7.1-ci yarımbəndinə əsasən hesablanmış müavinətin (istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi, hamiləliyə və doğuşa görə müavinət istisna olmaqla) aylıq məbləği sığortaolunanın (əlavə iş yeri olduqda isə əsas və əlavə iş yerində cəmi qazancı nəzərə alınmaqla) aylıq vəzifə maaşı və ya tarif dərəcəsinin (vaxtamuzd əməkhaqqı alanlar üçün vaxtamuzd, işəmuzd əməkhaqqı alanlar üçün isə işəmuzd əməkhaqqı) iki qatından artıq ola bilməz.

2.7.4. sığortaolunan əsas iş yeri ilə yanaşı, əlavə iş yerində (yerlərində) də muzdlu işə aid olan fəaliyyətdən gəlir əldə edərsə, bu zaman əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 təqvim günü üçün sığortaedənlər tərəfindən hər bir iş yerindəki qazancı əsasında ayrı-ayrılıqda, qalan günlər üçün isə sığortaçı tərəfindən onun ümumi qazancı əsasında hesablanır və ödənilir.

2.7.5. əsas iş yerindən əlavə muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunana əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət bu Qaydanın 2.7.4-cü yarımbəndinə əsasən, lakin ilk 14 təqvim günü üçün yalnız əsas iş yeri üzrə sığortaedən tərəfindən hesablanır və ödənilir.

2.7.6. bu Qaydanın 2.7.1-ci yarımbəndində qeyd olunan bölən təqvim günlərinin sayını müəyyən etmək üçün ümumi təqvim günlərinin sayından aşağıdakı dövrə düşən təqvim günlərinin sayı çıxılır:

- əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət ödənilmiş dövr;
- hamiləliyə və doğuşa görə müavinət ödənilmiş dövr;
- qismən ödənişli sosial məzuniyyət dövrü.

2.7.7. əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət ödənildiyi tarixdən sonrakı 180 təqvim günü ərzində müavinətin hesablanmasında nəzərə alınan dövr üçün sığortaedən tərəfindən məcburi dövlət sosial sığortası üzrə borc məbləği tam ödənildikdə və ya həmin dövrə dəqiqləşdirilmiş hesabat təqdim edilməsi səbəbindən sığortaolunanın qazancında artım olarsa sığortaedənin müraciəti əsasında müavinət sığortaçı tərəfindən yenidən hesablanır və yaranmış fərqin sığortaolunana ödənilməsi təmin edilir.

2.7.8. əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət ödənildiyi tarixdən sonrakı 180 təqvim günü ərzində müavinətin hesablanmasında nəzərə alınan dövr üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməsi səbəbindən sığortaolunanın qazancında azalma olarsa, müavinət sığortaçı tərəfindən yenidən hesablanır və artıq verilmiş məbləğin bu Qaydanın 7.6.6-cı yarımbəndinə əsasən geri qaytarılması təmin edilir.

2.8. Bu Qaydanın 2.9-cu bəndində qeyd olunan şərt nəzərə alınmaqla, bu Qaydanın 2.7.1-ci yarımbəndinə əsasən hesablanmış əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət hərbi qulluqçulara və xüsusi rütbəli şəxslərə münasibətdə 100 faiz, digər sığortaolunanlara münasibətdə isə 90 faiz miqdarında ödənilir.

2.9. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin aylıq maksimal məbləği "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 6-1-ci maddəsinə uyğun olaraq əmək pensiyasının minimum məbləğinin 25 mislindən, artıq ola bilməz.

2.10. Sığortaedənin təqsiri üzündən baş verən istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət əmək qabiliyyətinin müvəqqəti itirildiyi bütün dövr bu Qaydanın 2.7.4-cü və 2.7.5-ci yarımbəndlərinin tələbləri nəzərə alınmaqla təqsirkar sığortaedənin vəsaiti hesabına ödənilir. Məlumata əsasən sığortaçı tərəfindən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin ödənilməsi bədbəxt hadisənin rəsmiləşdirilməsi barədə İZ aktı təqdim edilənədək dayandırılır. Sığortaedənin təqsiri İZ aktına əsasən öz təsdiqini tapmadıqda müavinət bu Qaydanın 2.5-ci bəndinə uyğun olaraq sığortaedənin müraciəti əsasında təyin edilir və ödənilir.

2.11. Məlumata əsasən sığortaolunanın törətdiyi cinayət nəticəsində aldığı xəsarətlə əlaqədar əmək qabiliyyətini müvəqqəti itirilməsinə görə müavinətin ödənişi məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya qərarı təqdim edilənədək dayandırılır, sığortaolunanın cinayət məsuliyyəti müəyyən edilmədikdə müavinət ödənilir. Əks təqdirdə müavinətin ödənişi həyata keçirilmir.

2.12. Əmək qabiliyyətinin müvəqqəti itirilməsi ödənişsiz məzuniyyət, təhsil və yaradıcılıq məzuniyyəti və qismən ödənişli sosial məzuniyyət dövründən sonra da davam edərsə, bu zaman əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət sığortaolunanın işə başlamalı olduğu gündən ümumi qayda üzrə verilir.

2.13. Qeyri-iş günlərinə düşməsinə görə xəstəlik müddəti üzrə kəsilmə baş verməsi səbəbindən Məlumatlarda rejim pozuntusuna dair qeyd olduqda əmək qabiliyyətinin müvəqqəti itirilməsi fasiləsiz və ardıcıl hesab edilir.

2.14. Bu Qaydanın 2.7-ci bəndinə əsasən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin hesabalanmasında nəzərə alınan dövr üzrə sığorta hadisəsindən əvvəlki rüb üçün sığortaedən tərəfindən fəaliyyətin olmaması barədə Dövlət Vergi Xidmətinə arayış təqdim edilərsə bu halda Qaydanın 1.6-cı bəndinə əsasən müavinət təyin edilmir, sığortaedən və sığortaolunana bu barədə müvafiq elektron bildiriş göndərilir və sığorta hadisəsi baş verdiyi dövrdə fəaliyyətinin olması ilə bağlı sığortaedənin müraciətinə əsasən ümumi əsaslarla yenidən baxılır.

## 3. HAMİLƏLİYƏ VƏ DOĞUŞA GÖRƏ MÜAVİNƏT

3.1. Sığortaolunanlara hamiləliyə və doğuşa görə müavinət MEİS-in “Əmək və Məşğulluq” altsistemindən (bundan sonra – ƏMAS) hamiləliyə və doğuşa görə məzuniyyət əmri ilə bağlı əldə olunmuş məlumatlar əsasında bu Qaydanın 2.1-ci bəndinə uyğun olaraq verilir.

3.2. Hamiləliyə və doğuşa görə məzuniyyət müddəti əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti, qismən ödənişli sosial məzuniyyət və ya ödənişsiz məzuniyyət dövrünə təsadüf edərsə, hamiləliyə və doğuşa görə məzuniyyət dövrünə düşən bütün təqvim günləri üçün müavinət verilir.

3.3. Hamiləliyə və doğuşa görə müavinət bu Qaydanın 2.2.3-cü yarımbəndi, 2.3-cü 2.14-cü bəndləri nəzərə alınmaqla, 2.7.1 - 2.7.3-cü, 2.7.6 və 2.7.8-ci yarımbəndlərinə uyğun olaraq hesablanır və hesablanmış müavinət məbləğinin bu Qaydanın 2.9-cu bəndi nəzərə alınmaqla 100 faizi miqdarında ödənilir.

## 4. UŞAĞIN ANADAN OLMASINA GÖRƏ BİRDƏFƏLİK MÜAVİNƏT

4.1. Yeni doğulan (ölü doğulan uşaq istisna olmaqla), eləcə də övladlığa götürülmüş hər bir uşağa görə qanunvericilikdə müəyyən olunmuş məbləğdə uşağın anadan olmasına görə birdəfəlik müavinət verilir.

4.2. Uşağın anadan olmasına görə birdəfəlik müavinət uşağın qeydiyyatına dair Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Vətəndaşlıq vəziyyəti aktları” avtomatlaşdırılmış qeydiyyat informasiya sistemindən (bundan sonra – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemi) əldə olunmuş məlumatlar əsasında proaktiv qaydada təyin olunur.

4.3. Uşağın anadan olmasına görə birdəfəlik müavinət yeni doğulan uşağın anasına verilir. Ana sığortaolunan olmadıqda və ya müavinətin anaya verilməsi mümkün olmayan digər hallarda müavinət sığortaolunan ataya verilir.

4.4. Uşağın valideynlərindən biri sığortaolunan olduqda bu müavinət məcburi dövlət sosial sığorta haqları hesabına, əks halda isə dövlət büdcəsinin vəsaiti hesabına verilir.

## 5. ÜÇ YAŞINADƏK UŞAĞA QULLUĞA GÖRƏ MÜAVİNƏT

5.1. Sığortaolunana üç yaşınadək uşağa qulluğa görə müavinət uşağın anadan olmasının qeydiyyatına dair Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemindən və qismən ödənişli sosial məzuniyyət əmrinə dair ƏMAS-dan əldə olunmuş məlumatlar əsasında hər uşaq üç yaşına çatanadək qanunvericilikdə müəyyən olunmuş məbləğdə proaktiv qaydada təyin edilir.

5.2. Əlilliyi olan üç yaşınadək uşağa qulluğa görə müavinət qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş müavinət məbləğinin ikiqatı miqdarında verilir.

5.3. Övladlığa götürülmüş üç yaşınadək uşaqlara qulluğa görə müavinət ümumi əsaslarla verilir.

5.4. Uşaq üç yaşına çatanadək öldüyü halda, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemindən əldə edilmiş məlumat əsasında müavinətin verilməsi uşağın öldüyü gündən dayandırılır.

5.5. Üç yaşınadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyət dövründə müəssisənin ləğv edilməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilmiş sığortaolunana müavinət qismən ödənişli sosial məzuniyyət əmrinin rəsmiləşdirilmiş müddətinə uyğun olaraq verilir.

5.6. Sığortaolunanın öz xahişi ilə qismən ödənişli sosial məzuniyyət dövründə əmək müqaviləsinə xitam verildiyi və ya məzuniyyətdən geri çağırıldığı tarixdən müavinətin verilməsi dayandırılır.

## 6. DƏFN ÜÇÜN BİRDƏFƏLİK MÜAVİNƏT

6.1. Sığortaolunan, “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.1.1-4.0.1.5-ci maddələrində nəzərdə tutulan müavinətlərdən biri təyin edilmiş yaxud “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işsizlikdən sığorta ödənişini alan şəxs (bundan sonra - sosial müavinət alan şəxs) və ya əmək pensiyaçısı vəfat etdikdə dəfn üçün birdəfəlik müavinət verilir.

6.2. Sığortaolunanlar və sosial müavinət alan şəxslər üçün dəfn üçün birdəfəlik müavinətin məbləği sosial müavinətlərə dair qanunvericiliklə, əmək pensiyaçıları üzrə isə əmək pensiyaları haqqında qanunvericiliklə müəyyən edilir.

6.3. Vəfat etmiş şəxs eyni zamanda həm sığortaolunan və ya sosial müavinət alan şəxs, həm də əmək pensiyaçısı olduqda, bu müavinətin biri - məbləğcə daha böyüyü ödənilir.

## 7. SOSİAL SIĞORTA ÖDƏMƏLƏRİNİN TƏYİN EDİLMƏSİ VƏ ÖDƏNİLMƏSİ

7.1. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət aşağıdakı qaydada təyin edilir və ödənilir:

7.1.1. bu Qaydanın 2.5-ci bəndi nəzərə alınmaqla sığortaedən tərəfindən aşağıdakı qaydada:

1. bu Qaydanın 2.1-ci bəndində göstərilmiş qaydada ötürülmüş məlumatlar real vaxt rejimində ƏMAS-da həmin sığortaolunanın sığortaedən(lər)inə aid şəxsi kabinetə əlavə edilir.

2. şəxsi kabinetə ötürülmüş məlumatlar əsasında qanunvericiliyə uyğun olaraq sığortaolunanın müavinət alıb-almamaq hüququ ƏMAS-da sığortaedənin səlahiyyətli vəzifəli şəxsi (və ya onun səlahiyyət verdiyi şəxs) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilir və sığortaedənin öz seçimi əsasında elektron və ya kağız daşıyıcıda müavinətin məbləğinin hesablanması və ödənilməsi təmin edilir.

3. sığortaedən tərəfindən müavinətin məbləği bu Qaydanın 2-ci hissəsinə əsasən hesablanır.

4. bu Qaydanın 7.1.2-ci yarımbəndinin 3-cü abzası nəzərə alınmaqla, sığortaedən müavinətin məbləğindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 101-ci maddəsinə əsasən gəlir vergisini hesablayaraq ödənilməsini təmin edir.

5. bu Qaydanın 7.1.1-ci və 7.1.2-ci yarımbəndlərinə əsasən hesablanmış müavinətlərin cəmi məbləği, habelə sığortaolunanın həmin aydakı gəlirləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 101-ci maddəsinə əsasən hesablanmış cəmi gəlir vergisini sığortaedən sığortaolunanın həmin aydakı, bu mümkün olmadıqda isə növbəti aydakı gəlirlərindən tutaraq müvafiq qaydada ödənilməsini təmin edir.

7.1.2. bu Qaydaların 2.5-ci bəndi nəzərə alınmaqla sığortaçı tərəfindən məcburi dövlət sosial sığorta haqları hesabına aşağıdakı qaydada:

1. bu Qaydanın 2.1-ci bəndində göstərilmiş qaydada ötürülmüş məlumatların MEİS tərəfindən real vaxt rejimində emalı zamanı sığortaolunanın əmək qabiliyyətini 14 təqvim günündən çox itirdiyi müəyyən edilərsə müavinət sığortaçı tərəfindən proaktiv qaydada təyin

edilir və ödənilir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinin aydan aya keçməsi halında, müavinətin məbləği növbəti ayın birinci günü, digər hallarda isə əmək qabiliyyətinin müvəqqəti itirilməsinin son günü hesablanır və bu Qaydada nəzərdə tutulmuş müddətdə ödənilir.

2. müavinətin məbləği bu Qaydanın 2-ci hissəsinə əsasən MEİS tərəfindən proaktiv qaydada hesablanaraq, sığortaçının səlahiyyətli vəzifəli şəxs(lər)inin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra ödənilməsi üçün sığortaçının mühasibatlığına göndərilir.

3. sığortaçının mühasibatlığı tərəfindən hesablanmış müavinətin məbləği tam həcmdə sığortaolunana ödənilir və bu barədə onun sığortaedəninə məlumat verilir. Ödənilmiş müavinətə münasibətdə gəlir vergisi Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 101-ci maddəsinə əsasən sığortaedən tərəfindən hesablanaraq ödənişə göndərilir.

4. Ödəniş, tələb olunan rekvizitlər EHİS vasitəsilə əldə edilməklə və ya rəqəmsal həllər tətbiq edilməklə həyata keçirilir.

5. müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi Məlumatın ötürüldüyü gündən 5 iş günü ərzində təmin edilir. Bu zaman çatışmazlıqlar aşkar edildikdə, bu müddət hər dəfə 10 iş günü olmaqla, ən çox 2 dəfə uzadıla bilər.

6. hər hansı bir çatışmazlıq səbəbindən müavinətin ödənilməsi mümkün olmadıqda, bu barədə 5 iş günü müddətində sığortaedən və sığortaolunanın elektron ünvanına səbəblər göstərilməklə bildiriş göndərilir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sığortaçı tərəfindən müavinətin ödənilməsi həyata keçirilir.

7. Qanunun 14.5-ci maddəsində göstərilən muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlara münasibətdə müavinət Məlumatın ötürüldüyü tarixdən əvvəlki son 4 rübün 6 ayına münasibətdə həmin şəxslər tərəfindən məcburi dövlət sosial sığorta haqqı qanunvericiliklə müəyyən olunmuş məbləğdə tam ödənildiyi halda bu Qaydanın 2-ci hissəsinə uyğun olaraq və bu Qaydanın 2.14-cü yarımbəndi nəzərə alınmaqla təyin olunur və ödənilir.

7.1.3. bu Qaydanın 1.8-ci və 2.14-cü bəndlərində qeyd olunan sığortaolunanlara əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 təqvim günü üçün müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi sığortaedən tərəfindən onun vəsaiti hesabına, qalan günlər üçün isə sığortaedənin müraciəti əsasında sığortaçı tərəfindən həyata keçirilir. Müavinət bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada müraciət əsasında təyin edilir və ödənilir.

7.1.4. bu Qaydanın 1.8.4-cü bəndində qeyd olunan sığortaolunanlara münasibətdə bu Qaydanın 7.1.3-cü yarımbəndində nəzərdə tutulanlara əlavə olaraq əmək kitabçasının surəti əlavə olunur.

7.2. Hamiləliyə və doğuşa görə müavinət aşağıdakı qaydada təyin edilir və ödənilir:

7.2.1. bu Qaydanın 3.1-ci bəndində göstərilmiş qaydada əldə olunmuş məlumatlar əsasında müavinət sığortaçı tərəfindən proaktiv qaydada təyin edilir.

7.2.2. müavinətin məbləği bu Qaydanın 2.7-ci bəndinə əsasən MEİS tərəfindən proaktiv qaydada hesablanaraq, sığortaçının səlahiyyətli vəzifəli şəxs(lər)inin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra ödənilməsi üçün mühasibatlığa göndərilir.

7.2.3. Ödəniş, tələb olunan rekvizitlər EHİS vasitəsilə əldə edilməklə və ya rəqəmsal həllər tətbiq edilməklə həyata keçirilir.

7.2.4. bu Qaydanın 1.8-ci və 2.14-cü bəndlərində qeyd olunan sığortaolunanlara müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi sığortaedənin bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada müraciəti əsasında sığortaçı tərəfindən həyata keçirilir.

7.2.5. bu Qaydanın 7.2.4-cü yarımbəndində nəzərdə tutulan müraciətə sığortaedən tərəfindən hamiləliyə və doğuşa görə məzuniyyət verilməsi barədə əmrdən (sərəncamdan) çıxarış, bu Qaydanın 1.8.4-cü bəndində qeyd olunan sığortaolunanlara münasibətdə həm də əmək kitabçasının surəti əlavə olunur.

7.3. Uşağın anadan olmasına görə birdəfəlik müavinət aşağıdakı qaydada təyin edilir və ödənilir:

7.3.1. 31 dekabr 2020-ci il tarixindən sonra doğulmuş uşaqlar üçün uşağın anadan olmasına görə birdəfəlik müavinət uşağın anadan olmasının qeydiyyatına dair EHİS vasitəsilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemindən əldə olunmuş məlumatlar əsasında sığortaçı tərəfindən proaktiv qaydada təyin olunur.

7.3.2. 1 yanvar 2021-ci il tarixindən əvvəl doğulmuş uşaqlar üçün uşağın anadan olmasına görə birdəfəlik müavinət sığortaedənin müraciəti əsasında sığortaçı tərəfindən ödənilir. Bu zaman müraciət müddəti məhdudlaşdırılmır və müavinət uşaq anadan olan zaman qüvvədə olmuş qanunvericiliklə müəyyən edilmiş məbləğdə ödənilir.

7.4. Üç yaşınadək uşağa qulluğa görə müavinət aşağıdakı qaydada təyin edilir və ödənilir:

7.4.1. 31 dekabr _____-cü il tarixindən sonra uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətə buraxılmış sığortaolunanlara bu müavinət ƏMAS-a daxil edilən sığortaolunana qismən ödənişli sosial məzuniyyət verilməsi barədə əmr və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə uşağın anadan olması ilə bağlı əldə olunmuş məlumatlar əsasında MEİS tərəfindən proaktiv qaydada təyin olunur və sığortaçı tərəfindən ödənilir. Tam olmayan ay üçün müavinət sığortaolunanın məzuniyyətdə olduğu həmin aydakı təqvim günlərinə mütənasib qaydada verilir.

7.4.2. 1 yanvar _____-cü il tarixindən əvvəl təyin edilmiş müavinətin ödənişi təyin olunan zaman qüvvədə olan qanunvericiliyə uyğun davam etdirilir.

7.4.3. 1 yanvar _____-ci il tarixinədək üç yaşadək uşağı olan və qismən ödənişli sosial məzuniyyətə çıxmış, lakin uşağa qulluğa görə müavinət almamış sığortaolunanlara bu müavinət bu Qaydanın 7.4.2-ci yarımbəndinə uyğun müraciət əsasında təyin edilir və ödənilir.

7.4.4. bu Qaydanın 1.8-ci və 2.14-cü bəndlərində qeyd olunan sığortaolunanlara müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi sığortaedənin bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada müraciəti əsasında sığortaçı tərəfindən həyata keçirilir. Bu zaman müraciət müddəti məhdudlaşdırılmır.

7.4.5. bu Qaydanın 7.4.4-cü yarımbəndində nəzərdə tutulan müraciətə sığortaedən tərəfindən qismən ödənişli sosial məzuniyyət verilməsi barədə əmrdən (sərəncamdan) çıxarış əlavə olunur.

7.5. Dəfn üçün birdəfəlik müavinət aşağıdakı qaydada təyin edilir və ödənilir:

7.5.1. 31 dekabr _____-cü il tarixindən sonra vəfat etmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 49-cu maddəsinin I hissəsinə əsasən əmək müqaviləsi hüquqi qüvvədə olan sığortaolunanlara, əmək pensiyaçılarına və ya sosial müavinət alan şəxslərə münasibətdə dəfn üçün birdəfəlik müavinət ölümü dövlət qeydiyyatına alınmış şəxsin soyadı, adı, ata adı, fərdi identifikasiya nömrəsi və dəfnlə bağlı xərcləri çəkmiş şəxs barədə (şəxsin soyadı, adı, ata adı, fərdi identifikasiya və əlaqə nömrələri) EHİS vasitəsilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemindən əldə olunmuş məlumatlar əsasında proaktiv qaydada təyin olunur.

7.5.2. 1 yanvar _____-cü il tarixindən əvvəl vəfat etmiş şəxsə görə dəfn üçün birdəfəlik müavinət sığortaedənin (Qanunun 14.5-ci maddəsində nəzərə tutulan sığortaolunanlar vəfat etdikdə dəfn xərcini çəkən şəxs) müraciəti əsasında ödənilir. Bu zaman müraciət müddəti məhdudlaşdırılmır və müavinət şəxs vəfat edən zaman qüvvədə olmuş qanunvericiliklə müəyyən edilmiş məbləğdə onun dəfni ilə bağlı xərcləri çəkmiş şəxsə təyin edilir və ödənilir.

7.5.3. bu Qaydanın 1.8-ci və 2.14-cü bəndlərində qeyd olunan sığortaolunanlara müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi sığortaedənin bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada müraciəti əsasında sığortaçı tərəfindən həyata keçirilir.

7.6. Müavinətlərin təyin edilməsi, hesablanması və ödənilməsi ilə bağlı digər məsələlər:

7.6.1. sığortaçı bu Qaydaya əsasən təyin edilmiş müavinətin 5 (beş) iş günü ərzində müavinət təyin edilən şəxsin bank hesabına köçürülməsini təmin edir. Bu zaman çəkilən xərclər və xidmət haqları sığortaçı tərəfindən ödənilir.

7.6.2. MEİS vasitəsilə müavinətin proaktiv qaydada təyin olunmasına və köçürülmüş bank hesabına dair müavinət təyin edilən şəxsin mobil telefonuna və ya elektron ünvanına (olduğu halda) bildiriş göndərilir.

7.6.3. MEİS-ə ötürülmüş məlumatlar sonradan etibarsız hesab edilə və silinə bilməz.

7.6.4. bu Qaydanın 1.8-ci və 2.14-cü bəndlərinə münasibətdə sığortaedən, digər hallarda isə bank tərəfindən rekvizitlərinin düzgün göstərilməməsi səbəbindən müavinət səhvən başqa şəxsə ödənildikdə, sığortaçının müraciəti əsasında müvafiq olaraq sığortaedən və ya bank bu məbləği sığortaçıya geri qaytarır.

7.6.5. vəfat etmiş sığortaolunanın öldüyü günədək almadığı müavinəti onun vərəsələrinin almaq hüququ vardır. EHİS vasitəsilə sığortaolunanın vərəsələrinə dair əldə olunmuş məlumatlar əsasında müavinət proaktiv qaydada təyin olunur. Alınmamış müavinətlər vərəsəlik əmlakına daxil edilmir.

7.6.6. artıq verilmiş məbləğ sığortaçının müraciəti əsasında sığortaedən tərəfindən sığortaolunanın əməkhaqqından tutularaq sığortaçıya geri qaytarılır. Bu mümkün olmadıqda sözügedən məbləği sığortaçının tələbinə əsasən sığortaolunan könüllü şəkildə, razılığı olmadıqda isə məhkəmənin müvafiq qərarına əsasən sığortaçının büdcəsinə bərpa edir.

7.6.7. tutulan məbləğ sığortaolunanın əməkhaqqının 20 faizindən çox olmamalıdır. Hər bir halda geri qaytarılası məbləğ, sığortaolunana çatası vəsaitin 20 faizindən çox olmayaraq çıxılır.

7.6.8. əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuşa görə müavinətlərdən məhkəmənin qərarı ilə aliment tutula bilər. Müavinətdən bundan başqa heç bir ödəniş tutulmur. Müavinətin məbləğindən alimentin tutulması sığortaolunanın hesabına inkasso sərəncamı qoyulmaqla həyata keçirilir.

7.6.9. Bu Qaydanın məqsədləri üçün sığortaolunanlara təyin olunmuş müavinət əməkhaqqı ilə bağlı bank hesablarının rekvizitlərinin real vaxt rejimində əldə olunması mümkün olmadıqda, Fondun müvəkkil banklarında açılan hesaba ödənilir.

7.6.10. bu Qaydada nəzərdə tutulmuş müavinətlər “Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilir.

## 8. SIĞORTAOLUNANLARIN SANATORİYA-KURORT MÜALİCƏSİ

8.1. Məcburi dövlət sosial sığorta vəsaitləri hesabına əmək pensiyaçılarına və sığortaolunanlara (Qanunun 14.5-ci maddəsində nəzərdə tutulan sığortaolunanlar istisna olmaqla) sanatoriya-kurort yollayışlarının dəyəri tam və ya qismən ödənilir.

8.2. Sanatoriya-kurort müalicəsi üzrə xərclərin maliyyələşdirilməsi Nazirlik ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası arasında bağlanan müqavilə əsasında həyata keçirilir.

## 9. MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

Sosial sığorta ödəmələrinin təyin edilməsi, hesablanması və ödənilməsi ilə bağlı mübahisələrə “Sosial sığorta haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq inzibati qaydada və ya məhkəmələr tərəfindən baxılır.

**“Sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyini, hesablanması və ödənilməsi Qaydası”na**
**1 nömrəli əlavə**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində**
**Dövlət Sosial Müdafiə Fonduna**

**Sosial sığorta ödəmələrinin verilməsi üçün təqdim olunacaq məlumatlar**

| № | soyadı, adı və atasının adı | müavinətin növü | sosial sığorta nömrəsi | FİN | vəzifə maaşı | bank rekvizitləri |
|---|---|---|---|---|---|---|
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |

**Qeyd**: *Cədvəldə göstərilən məlumatların dəqiqliyinə görə işəgötürən müəssisə və ya təşkilat məsuliyyət daşıyır.*

**Sığortaedənin adı, SUN və VÖEN-i:** ______________________

_____________ ______

**MY**

**Sığortaedənin rəhbəri:** ________________________ ____________

(soyadı, adı, atasının adı) (imzası)

**Baş (böyük) mühasib:** ________________________ __________

(soyadı, adı, atasının adı) (imzası)

**“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsinin qəbul olunması zərurətinin**

## ƏSASLANDIRILMASI

## Bölmə 1. Məqsəd və predmet

**1.1. Layihənin hazırlanmasının huquqi əsasları**

“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 39.2-ci maddəsinə uyğun olaraq qanunvericilik təşəbbüsü ilə çıxış edilərək hazırlanmışdır.

**1.2. Layihənin ümumi məqsədləri**

Layihənin hazırlanmasının əsas məqsədi sosial sığorta ödəmələrinin təyin edilməsinin, hesablanmasının və ödənilməsinin proaktiv qaydada həyata keçirilməsinin təmin edilməsi, habelə Qərarın və onunla təsdiq edilmiş sənədin normayaratmanın müasir tələblərinə uyğunlaşdırılması və təkmilləşdirilməsi, öz əhəmiyyətini və aktuallığını itirmiş müddəaların ləğv edilməsidir.

**1.3. Layihə üçün nəzərdə tutulmuş normativ hüquqi aktın növünün seçilməsinin əsaslandırılması**

Layihə qüvvədə olan Qərara dəyişiklik edilməsini nəzərdə tutur və bununla bağlı layihə Azərbaycan Respublikası Konstitusiyasının 120-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı formasında hazırlanmışdır.

**1.4. Layihənin predmeti**

Layihə Qərarla təsdiq edilmiş Əsasnamənin yeni redaksiyada verilməsini nəzərdə tutur.

**1.5. Problemin tarixçəsi**

Ölkəmizdə hazırda sosial sığorta ödəmələrinin təyin edilməsi, hesablanması və ödənilməsi interaktiv qaydada, yəni sığortaedənlərin müvafiq İT platforması üzərindən sığortaçıya elektron müraciəti əsasında həyata keçirilir. Bəzi hallarda təqdim edilən məlumatlarda çatışmazlıq və uyğunsuzluqlar meydana çıxdığı üçün sığortaçı tərəfindən sözügedən müraciət səbəbi göstərilməklə geri qaytarılır. Bu isə sığortaedənin iş yükünü artırmaqla yanaşı, sığortaolunanın sosial sığorta ödəməsini sığorta hadisəsi baş verdiyi dövrdən gec, bəzən isə bir neçə ay sonra əldə etməsinə və haqlı narazılığın yaranmasına gətirib çıxarır. Onu da qeyd edək ki, son illər ölkəmizdə dövlət orqanlarının iş prosesinin rəqəmsallaşdırılması və mötəbər elektron məlumat bazalarının yaradılması istiqamətində əhəmiyyətli irəliləyişlər baş vermişdir. Bütün bunlar imkan verir ki, sosial sığorta ödəmələrinin böyük hissəsi (müqavilələri kağız üzərində olanlar və s. istisna olmaqla) sığortaedən və ya sığortaolunanın heç birinin müraciəti olmadan sığortaçı tərəfindən proaktiv qaydada həyata keçirilsin.

Eyni zamanda, sözügedən Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Ötən dövr ərzində bu Əsasnaməyə, əsasən normativ hüquqi aktlar arasında kolliziyaların aradan qaldırılması

məqsədilə dəyişikliklər edilmişdir. Aparılmış dəyişikliklərin az bir hissəsi mahiyyət etibarilə əhəmiyyətli dəyişiklikləri ehtiva etmişdir. Belə ki, Əsasnamənin bəzi müddəaları artıq öz aktuallığını itirsə də, normativ hüquqi aktdan çıxarılmamışdır. Həmçinin bu Əsasnamə müasir normayaratmanın tələblərinə uyğun olmadığından, tətbiq zamanı ciddi problemlərə səbəb olur.

Bütün bunlar da adıçəkilən sənəddə mahiyyət və normayaratma baxımından ciddi dəyişikliklərin edilməsini, eləcə də bu Qərarla təsdiq edilmiş sənədin yeni redaksiyada yenidən təsdiq edilməsini şərtləndirir.

**1.6. Dövlət tənzimləməsinə alternativ tənzimləmənin mümkün olmadığının əsaslandırılması:**

Qərar məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsinin şərtlərini və qaydalarını müəyyən edir. Bu Qərar sığortaolunanlara sığorta hadisəsinə uyğun olaraq, dövlət büdcəsi və ya məcburi dövlət sosial sığorta haqqı hesabına müavinətlərin hesablanmasını və ödənilməsini tənzimləyən normaları özündə ehtiva edir. Bu baxımdan layihə sığortaolunanların "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanunu (bundan sonra – Qanun) ilə müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi ilə bağlı yeni mexanizmlər müəyyən etdiyindən, onların tətbiqi və məcburiliyinin təmin edilməsi üçün hüquqi əsasın yaradılması mütləqdir. Beləliklə, Layihə üzrə təkliflərin maarifləndirmə yolu ilə və ya iqtisadi alət vasitəsilə tənzimlənməsi mümkün deyildir.

**1.7. Təklif edilən əsas dəyişikliklər barədə məlumat.**

Qərarın adı müvafiq olaraq, həm mətninə, həm də Qanunun tələbinə uyğun olaraq dəqiqləşdirilərək "Sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı olaraq verilmişdir.

Həmin Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Əsasnamə isə Qərara uyğun olaraq, **"Sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin təyin edilməsi, hesablanması və ödənilməsi Qaydası"** adlandırılmış və ümumilikdə yeni redaksiyada verilmişdir.

Layihənin əsas məqsədi ödənilməli olan sosial sığorta ödəmələrinin sığortaedənin və ya sığortaolunanın müraciəti olmadan proaktiv qaydada həyata keçirilməsinin təmin edilməsidir.

Layihə Qanun ilə müəyyən edilmiş sosial sığorta ödəmələrinin aidiyyəti dövlət orqanlarının elektron informasiya sistemlərindən əldə olunmuş məlumatlar əsasında proaktiv qaydada təyinatını nəzərdə tutur. Bunun nəticəsində hazırkı təcrübədə mövcud olan sığortaedən və sığortaolunanların müraciət etmək, habelə müxtəlif sənədlər toplamaq və s. öhdəlikləri ortadan qalxmış olacaqdır. Proaktiv təyinat sisteminin tətbiqi üçün aşağıdakı zəruri islahatların aparılması təklif olunmuşdur:

- ***müdiriyyətin müavinətin təyin edilməsi üzrə komissiyasının ləğv edilməsi***. İlk əvvəl qeyd edək ki, bu komissiyalar keçmiş iqtisadi sistemdən miras qalan mexanizm olmaqla son illər öz aktuallığını və əhəmiyyətini böyük ölçüdə itirmişdir. Lakin, Qərarda tələb kimi müəyyən edildiyi üçün bütün sığortaedənlərdə mütləq şəkildə belə komissiyalar formalaşdırılmalıdır və bu da təbii ki sahibkarlıq subyektlərinin iş yükünü artırır, onların mövcud resurslarından səmərəli istifadə edilməsinə maneə olur. Eyni zamanda, bu komissiyaların fəaliyyəti müavinətin təyin edilməsində və son nəticədə sığortaolunana çatmasında ləngimələrə və onların haqlı narazılıqlarına səbəb olur. Bütün bunlar nəzərə alınaraq, müavinətin proaktiv qaydada həyata keçirilməsi təklif edilmiş, bu səbəbdən də sözügedən komissiyaların ləğvi məqsəduyğun hesab edilmişdir.
- ***müavinətin hesablanması zamanı iş günləri metodologiyasından təqvim günü metodologiyasına keçid***. Hazırki qanunvericilikdə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə və hamiləliyə və doğuşa görə müavinətlər həmin dövrə düşən iş günlərinə görə təyin edilir.

Proaktiv təyinatın aparılması zamanı çətinliklərə səbəb olacağı üçün əmək qabiliyyətinin müvəqqəti itirilməsinə və hamiləliyə və doğuşa görə müavinətin təqvim günləri əsasında verilməsi ideyası irəli sürülmüşdür. Lakin bu zaman təkcə əmək qabiliyyətinin müvəqqəti itirildiyi müddət təqvim günləri əsasında hesablanmayacaq, eyni zamanda bir günə düşən orta gündəlik qazanc hesablanarkən də sığortaolunanın son 4 rübə münasibətdə mdss ödənilmiş gəlirlərinin cəmi həmin dövrdəki təqvim günlərinə (yəni 365 günə) bölünəcəkdir. Beləliklə, hazırkı təcrübəylə müqayisədə yeni mexanizm nə sığortaolunanın əldə etdiyi müavinətin məbləğini azaltmayacaq, nə də sığortaçının xərclərini artırmayacaqdır, lakin proaktiv təyinat sistemi qarşısındakı bir maneəni aşmağa imkan verəcəkdir.

- ***orta gündəlik qazancın hesablanması zamanı nəzərə alınan dövr.*** Hazırda qüvvədə olan normalara görə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə və hamiləliyə və doğuşa görə müavinətlərin hesablanması zamanı sığorta hadisəsinin baş verdiyi aydan əvvəlki 12 tam təqvim ayı ərzindəki gəlirləri əsas götürülür. Layihədə isə əmək qabiliyyətinin müvəqqəti itirildiyi aydan əvvəlki 4 rübə münasibətdə sığortaolunan üçün ödənilmiş məcburi dövlət sosial sığorta haqqının dörd mislindən götürülməsi təklif edilmişdir. Misal, əgər sığortaolunan 2024-cü ilin fevral ayında əmək qabiliyyətini itirərsə, bu zaman son 4 tam rüb ərzində (yəni 2023-cü ilin 4 rübü) sığortaedən tərəfindən onun xeyrinə ödənilmiş mdss haqlarının 4-ə vurulması yolu ilə müəyyən edilən gəlirləri əsas götürüləcəkdir. Çünki, Qanuna əsasən sığortaedən tərəfindən məcburi dövlət sosial sığortası üzrə hesabat hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək təqdim olunur. Bu zaman isə sığortaolunanın hər ay (məsələn, yuxarıdakı misal üzrə 2024-cü ilin yanvar ayı üzrə) qazancı barədə elektron resurslar üzərindən məlumat əldə etmək mümkün olmur. Bunun üçün sığortaolunanın son 4 rüb ərzindəki qazancının nəzərə alınması, müavinətin proaktiv qaydada təyinatına imkan verəcəkdir.

Layihədə bu Qərar qüvvəyə mindiyi tarixədək baş vermiş və (və ya) bu tarixdən sonra davam edən sosial sığorta hadisəsinə görə sosial sığorta ödəmələrinin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən, eləcə də baş vermiş, lakin müavinətin təyin edilməsi üçün müraciət edilməmiş müavinətin təyin edilməsi, hesablanması və ödənilməsinin sosial sığorta hadisəsinin baş verdiyi tarixdə hüquqi qüvvədə olan normalara uyğun həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda, layihədə əmək müqaviləsi kağız üzərində bağlanan vəzifələrdə çalışan, muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin şamil edilmədiyi, o cümlədən 31.12.2005-ci il tarixindən sonra fərdi şəxsi hesabında 6 aydan az sosial sığorta stajı olan, lakin 01.01.2006-cı ilədək olan sosial sığorta stajı nəzərə alınmaqla ümumilikdə 6 ay sosial sığorta stajı olan sığortaolunanların sosial sığorta hadisəsinə görə sosial sığorta ödəmələrinin müraciət əsasında həyata keçirilməsi nəzərdə tutulub. Çünki, bu şəxslərin əmək müqaviləsi ilə bağlı elektron informasiya resurslarında məlumatlar olmur və bu da proaktiv təyinata imkan vermir. Bunun üçün sığortaedən tərəfindən ənənəvi qaydada əmək müqaviləsi kağız üzərində olan sığortaolunanlara münasibətdə müraciət ediləcək və bu müraciətə zəruri məlumatları 1 nömrəli Əlavə formasında elektron platforma üzərindən sığortaçıya təqdim ediləcəkdir.

### 1.7.1. ƏMƏK QABİLİYYƏTİNİN MÜVƏQQƏTİ İTİRİLMƏSİNƏ GÖRƏ MÜAVİNƏT ÜZRƏ:

Layihədə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin təyininin sadələşdirilmiş mexanizmi müəyyən edilmişdir. Belə ki, həkim əmək qabiliyyətini müvəqqəti itirən sığortaolunana dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"a uyğun olaraq elektron sənəd formasında tərtib edilmiş və bağlanmış xəstəlik vərəqinə dair məlumatlar (bundan sonra - Məlumatlar)real vaxt rejimində "Vahid Səhiyyə İnformasiya Sistemi" (bundan sonra -VSİS)

vasitəsilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (bundan sonra – MEİS) ötürülür və Nazirliyin “Əmək və Məşğulluq” altsistemində (bundan sonra - ƏMAS) sığortaedənin kabinetində əks etdirilir. Sığortaedən isə ƏMAS-dan əldə etdiyi Məlumatlar əsasında əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 günü üçün bu müavinətin məbləğini hesablayır və öz vəsaiti hesabına ödənilməsini təmin edir.

Əgər əmək qabiliyyətinin müvəqqəti itirilməsi 14 gündən çox olarsa, 14 gündən sonrakı dövr üçün xüsusi alqoritm MEİS-də mövcud olan həmin sığortaolunana aid məlumatlardan istifadə etməklə müavinətin məbləğini hesablayır və hesablanmış müavinətin məbləğinin ödənilməsini Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (bundan sonra – Fond) həyata keçirir.

Əsasnamədə müxtəlif kateqoriyadan olan şəxslərə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin hesablanmış məbləğinin 60, 80, 100 faizi miqdarında verilməsi müəyyən edilmişdir. Bu baxımdan vahid yanaşmanın tətbiqi məqsədilə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin hərbi qulluqçulara və xüsusi rütbəli şəxslərə 100 faiz, digər bütün sığortaolunanlara isə vahid yanaşma olaraq 90 faiz miqdarında verilməsi təklif olunur.

Təcrübədə müavinət məbləğinin artırılması məqsədilə sığortaedən tərəfindən sui-istifadə hallarına yol verilməklə sığortaolunana münasibətdə təqdim edilmiş məcburi dövlət sosial sığortası üzrə hesabatlarda yüksək gəlir göstərilməsi, həmin gəlirlərin müqabilində yüksək məbləğdə müavinətin hesablanaraq ödənilməsindən sonra yenidən dəqiqləşdirilmiş hesabat təqdim etməklə sığortaolunanın gəlirlərinin azaldılması və azaldılmış gəlirə münasibətdə məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi hallarına rast gəlinmişdir. Proaktiv təyinatda bu kimi sui-istifadə hallarının qarşısını almaqdan ötrü müavinətin hesablanmasını Əsasnamədən fərqli olaraq sığortaolunanın son 12 ayda məcburi dövlət sosial sığortasına cəlb olunmuş gəlirlərindən deyil, son 4 rüb üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 4 mislindən hesablanması təklif edilir. Qeyd edək ki, məcburi dövlət sosial sığorta haqqı üzrə borcu olan sığortaedənin sığortaolunanına münasibətdə müavinətin ödənilməsindən imtina olunur, lakin borc məbləğləri ödənildikdən sonra və son 4 rüb üzrə fərdi şəxsi hesabında əks olunan məlumatlarda dəyişiklik olduqda müavinətin yenidən hesablanması layihədə nəzərdə tutulmuşdur. Qeyd edək ki, müavinət məcburi dövlət sosial sığorta haqqı üzrə borcu olan sığortaedənin sığortaolunanına ödənildikdən sonra sığortaedən tərəfindən məcburi dövlət sosial sığorta haqqı üzrə borc məbləğləri ödənildikdə və son 4 rüb üzrə fərdi şəxsi hesabında əks olunan məlumatlarda dəyişiklik olduqda müavinətin yenidən hesablanması layihədə nəzərdə tutulmuşdur. Belə ki, müavinət ödənildiyi tarixdən sonrakı 180 təqvim günü ərzində müavinətin hesablanmasında nəzərə alınan dövr üçün sığortaedən tərəfindən məcburi dövlət sosial sığortası üzrə borc məbləği tam ödənildikdə və ya həmin dövrə dəqiqləşdirilmiş hesabat təqdim edilməsi səbəbindən sığortaolunanın qazancında artım olarsa sığortaedənin müraciəti əsasında müavinət sığortaçı tərəfindən yenidən hesablanır və yaranmış fərqin sığortaolunana ödənilməsi təmin edilir. Həmçinin əksinə müavinət ödənildiyi tarixdən sonrakı dövr ərzində müavinətin hesablanmasında nəzərə alınan dövr üçün dəqiqləşdirilmiş hesabat təqdim edilməsi səbəbindən sığortaolunanın qazancında azalma olarsa, müavinət sığortaçı tərəfindən yenidən hesablanır və artıq verilmiş məbləğin geri qaytarılması təmin edilir.

Sığortaedənin təqsiri üzündən baş verən istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin əmək qabiliyyətinin müvəqqəti itirildiyi bütün dövr üçün sığortaedənin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulduğundan, artıqödəməyə yol verilməməsi üçün istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində baş verməsi şübhəsi olan xəstəlik növləri üzrə daxil olmuş məlumatlara əsasən müavinətin ödənilməsinin dayandırılması və araşdırılması, nəzərdə tutulmuşdur. Sığortaedənin

təqsiri İZ aktına əsasən öz təsdiqini tapmadıqda müavinət sığortaedənin müraciəti əsasında təyin edilir və ödənilir.

Həmçinin Əsasnamədə əlilliyi müəyyən edilmiş şəxslər üçün müavinətin il ərzində 6 ay, digər kateqoriya şəxslər üçün 12 ay verilməsi müəyyən edilir. Vahid yanaşmanın tətbiqi məqsədilə layihədə əmək qabiliyyətini müvəqqəti itirən bütün sığortaolunanlara müavinətin 12 ay ödənilməsi təklif edilir.

Layihədə proaktiv təyinat zamanı əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətdən gəlir vergisinin hesablanıb ödənilməsi aşağıdakı qaydada həyata keçiriləcəkdir.

✓ əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ilk 14 günü üçün sığortaedən müavinətin məbləğindən gəlir vergisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 101-ci maddəsinə əsasən hesablanıb ödənilməsini təmin edəcək;

✓ əmək qabiliyyətinin müvəqqəti itirilməsinin 14 gündən sonrakı dövrü üçün isə sığortaçının mühasibatlığı tərəfindən hesablanmış müavinətin məbləği tam həcmdə sığortaolunana ödəniləcək və bu barədə onun sığortaedəninə məlumat veriləcək, daha sonra ödənilmiş müavinətə münasibətdə gəlir vergisi Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 101-ci maddəsinə əsasən sığortaedən tərəfindən hesablanacaq, sığortaolunanın gəlirindən tutularaq ödənişə göndəriləcəkdir.

### 1.7.2. Hamiləliyə və doğuşa görə müavinət üzrə:

Qeyd edilən müavinət üzrə müddəalar eynilə saxlanmış, yalnız VSİS vasitəsilə MEİS-ə ötürülən Məlumatlara və ƏMAS-a daxil edilmiş hamiləliyə və doğuşa görə məzuniyyət əmri ilə bağlı məlumatlar əsasında müavinətin proaktiv qaydada təyinatının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Qeyd edək ki, hamiləliyə və doğuşa görə müavinətin hesablanması əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətin hesablanması metodologiyasına uyğun olaraq həyata keçirilir.

| | Hazırda | Təklif olunan |
|---|---|---|
| **Xəstəlik vərəqi** | Xəstəlik vərəqi, xəstəxana və polikilinikalar tərəfindən **kağız daşıyıcıda** sığortaolunana təqdim edilir. | **Elektron sənəd formasında tərtib edilmiş** xəstəlik vərəqinə dair məlumatlar “Vahid Səhiyyə İnformasiya Sistemi” vasitəsilə MEİS-ə ötürüləcəkdir. |
| **Təyinat proseduru** | Hazırda hamiləliyə və doğuşa görə müavinətin təyinat prosedurları ƏQMİ-nə görə müavinət ilə əsasən eynidir və **12 mərhələdən** ibarətdir. | İslahatdan sonra, təyinat proaktiv olacağı üçün bu **addımların sayı 5-ə enəcək**, hər 3 tərəf üçün də proses həddən artıq asanlaşacaqdır. |
| **Sənədlər** | Sığortaedən bu sənədləri Fonda təqdim edir:<br>1. Xəstəlik vərəqi<br>2. Məzuniyyət əmri<br>3. “Müavinət təyin edən komissiyası”nın protokolu<br>4. Haqq-hesab cədvəli, bank rekvizitləri | Elektron sistemlərdən götürdüyü aşağıdakı məlumatlar əsasında MEİS tərəfindən proaktiv təyinat aparılacaq və ödəniş üçün Fonda ötürəcəkdir:<br>1. Xəstəlik haqqında məlumat<br>2. Məzuniyyət ilə bağlı əmrə dair məlumat |

***Qeyd:*** *qırmızı rənglə yazılan hissələr yeni sistemdə ləğv edilmişdir.*

Müavinətin aylıq maksimal həddi ilə bağlı hazırda mövcud olan “əmək pensiyalarının minimum məbləğinin 25 mislindən artıq ola bilməz” məhdudiyyəti olduğu kimi saxlanılmışdır. Lakin bu həddə çatmayan bütün hamiləliyə və doğuşa görə müavinətlərin məbləği 100 faiz həcmində ödəniləcəkdir (hazırda da belədir).

### 1.7.3. Uşağın anadan olmasına görə birdəfəlik müavinət üzrə:

Uşağın anadan olmasına görə birdəfəlik müavinət 1 yanvar 2021-ci il tarixdən proaktiv qaydada təyin edilir. Bu müavinətlə bağlı mexanizmdə dəyişiklik edilməmiş, bununla bağlı Əsasnamənin müddəaları layihədə eynilə əks olunmuşdur.

**1.7.4. Üç yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət üzrə:**

Layihə uşağa qulluqla əlaqədar müavinətin ƏMAS-a əlavə olunan məzuniyyət əmri və Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemindən alınan uşağın anadan olması ilə bağlı məlumatlar əsasında MEİS tərəfindən proaktiv qaydada təyinat aparılmasını və məbləğin Fond tərəfindən sığortaolunana ödənilməsini nəzərdə tutur. Həmçinin Layihədə əlilliyi müəyyən edilmiş uşağa qulluqla əlaqədar müavinət qüvvədə olan qanunvericilikdə nəzərdə tutulmuş müavinət məbləğinin iki qat miqdarında verilməsi nəzərdə tutulmuşdur.

| Hazırda | Təklif olunan |
|---|---|
| **Addım 1:** Sığortaolunan (yeni uşağa qulluq edəcək şəxs) **uşağın doğuş haqqında şəhadətnaməsini** öz sığortaedəninə təqdim edir.<br>**Addım 2:** Sığortaedən isə e-gov.az üzərindən aşağıdakı sənədləri Fonda təqdim edir:<br>1. Məzuniyyət əmri<br>2. Doğuş haqqında şəhadətnamə<br>3. "Müavinət təyin edən komissiyası"nın protokolu<br>4. Haqq-hesab cədvəli, bank rekvizitlər<br>**Addım 3:** Təqdim olunan sənədlər əsasında Fond müavinəti **manual olaraq** təyin edir və sığortaolunana köçürür. | **Addım 1.** ƏMAS-da olan məzuniyyət əmri və ƏN-nin "Vətəndaşlıq vəziyyəti aktları"ndan alınan uşağın anadan olması ilə bağlı məlumatlar əsasında MEİS tərəfindən proaktiv təyinat aparılır və məbləğ Fond tərəfindən sığortaolunana köçürülür. |

***Qeyd:*** *qırmızı rənglə yazılan hissələr yeni sistemdə ləğv edilmişdir.*

**1.7.5. Dəfn üçün birdəfəlik müavinət üzrə:**

Layihədə dəfn üçün müavinətin də proaktiv qaydada təyini nəzərdə tutulmuşdur. Müəyyən edilmiş mexanizmə əsasən Ədliyyə Nazirliyi ölüm haqqında şəhadətnamə almağa gələn şəxsdən, dəfn xərcini çəkən şəxs barədə məlumatları da əldə edəcək, hər iki məlumatı (ölüm və dəfn edən şəxs barədə) real vaxt rejimində, elektron şəkildə MEİS-ə ötürəcəkdir. MEİS-ə ötürülən bu məlumatlar əsasında proaktiv qaydada təyinat aparılacaq və məbləğ Fond tərəfindən ödəniləcəkdir.

| | Hazırda | Təklif olunan |
|---|---|---|
| **Müraciət proseduru** | vəf. e. **Pensiyaçı** və **Sosial müavinət** olduqda: dəfn xərcini çəkən DOST-a; | **ƏN:**<br>1. ölüm haqqında şəhadətnamə almağa gələn şəxsdən, dəfn xərcini çəkən barədə məlumatları da əldə edəcək; |
| | vəf. e. **Sığortaolunan** olduqda isə: dəfn xərcini çəkən vəf. e.-nin sığortaedəninə müraciət etməlidir. | |

| | | |
|---|---|---|
| **Təqdim edilməli sənədlər** | vəf. e. **Pensiyaçı** və **Sosial müavinət** alan olduqda bu sənədlər təqdim olunmalı:<br>1. Ölüm haqqında Arayış<br>2. Dəfn xərci çəkən ilə bağlı Arayış<br>3. Müraciət ərizəsi<br>4. Müraciət edənin ş.v.-nin surəti | 2. hər iki məlumatı (ölüm və dəfn edən şəxs barədə) real vaxt rejimində, elektron şəkildə MEİS-ə ötürəcəkdir.<br>**ƏƏSMN:**<br>1. MEİS-ə ötürülən bu məlumatlar əsasında proaktiv təyinat aparacaq və məbləğ Fond tərəfindən ödəniləcəkdir. |
| | vəf. e. **Sığortaolunan** olduqda, onun Sığortaedəni bu sənədlər təqdim etməlidir:<br>1. Ölüm haqqında Arayış<br>2. Dəfn xərci çəkən ilə bağlı Arayış<br>3. Sığortaedənin “Müavinət təyin edən komissiyası”nın protokolu<br>4. Müraciət edənin ş.v.-nin surəti və bank rekvizitləri (əgər varsa) | |
| **Dəfni həyata keç. şəxs** | vəf. e. **Pensiyaçı və Sığortaolunan** olduqda: yerli bələdiyyədən Arayış alınır. | |
| | vəf. e. **Sosial müavinət** alan olduqda: İcra nümayəndəliyindən Arayış alınır. | |

***Qeyd:*** *qırmızı rənglə yazılan hissələr yeni sistemdə ləğv edilmişdir.*

**1.7.6. Sığortaolunanların sanatoriya-kurort müalicəsi**

Layihədə sanatoriya-kurort müalicəsi üzrə xərclərin tam və ya qismən ödənişinin Nazirlik ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası arasında bağlanan müqavilə əsasında həyata keçirilməsi təklif edilir. Belə ki, sanatoriya-kurort müalicəsi üzrə xərclərin tam təfsilatlı, anlaşıqlı, detallı müəyyən edilməsinin tərəflər arasında bağlanan müqavilə ilə tənzimlənməsi daha məqsədəuyğun hesab edilir.

## Bölmə 2. Təhlil

**2.1. Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili:**

**2.1.1. müvafiq problemi tənzimləyən qüvvədə olan hüquqi aktların dairəsi və həmin aktların aidiyyəti struktur elementləri**

Ümumilikdə sosial sahədə göstərilən xidmətlərin sadələşdirilməsi, şəffaflaşdırılması məqsədilə sistem üzrə bütün xidmətlərin proaktiv qaydada təyinatı üçün mütəmadi işlər aparılır. Bildiririk ki, 31 dekabr 2020-ci il tarixindən sonra doğulmuş uşaqlar üçün uşağın anadan olmasına görə birdəfəlik müavinət müraciət edilmədən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Əhalinin Dövlət Reyestri” avtomatlaşdırılmış qeydiyyat informasiya sistemindən uşağın anadan olmasının qeydiyyatına dair əldə olunmuş məlumatlar əsasında proaktiv qaydada təyin olunur. Bu istiqamətdə əldə olunmuş uğurlu nəticələr və sığortaolunanlar və sığortaedənlərin əlavə iş yükü, gecikmə hallarının və bu sahədə digər problemlərin qarşını aldığından digər sosial müavinətlərin də proaktiv qaydada təyinatı mexanizminə keçidin təmin edilməsi məqsədilə bu Layihə hazırlanmışdır.

**2.1.2. hüquqi tənzimləmədə dəyişiklik edilməsi təklif olunan hər bir hüquq normasının ayrı-ayrılıqda nöqsanlarının əsaslandırılması**

Layihədə Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 8 iyul tarixli 206 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranan vəzifələrin (peşələrin) siyahısı”nda nəzərdə

tutulan vəzifələrdə çalışan, muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 6-cı maddəsində nəzərdə tutulan, 31.12.2005-ci il tarixindən sonra fərdi şəxsi hesabında 6 aydan az sosial sığorta stajı olan, lakin 01.01.2006-cı ilədək olan sosial sığorta stajı nəzərə alınmaqla ümumilikdə 6 ay sosial sığorta stajı olan , sığortaolunanlara münasibətdə sosial sığorta ödəmələrinin təyin edilməs, hesablanması və ödənilməsinin müraciət əsasında həyata keçirilməsi nəzərdə tutulub. Bu məqsədlə, Layihədə müraciətin mexanizmi, o cümlədən tələb olunan sənədlər "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla müəyyən edilmişdir.

**2.1.3. problemlə bağlı qüvvədə olan aidiyyəti qanunvericiliyin tətbiqi təcrübəsi barədə məlumat**

Hazırda sosial müavinətlərin (uşağın anadan olmasına görə birdəfəlik müavinət istisna olmaqla) təyin edilməsi sığortaedənlərin müraciəti əsasında həyata keçirilir. Bu isə uzun bir müddət vaxt aparır ki, bu da vətəndaşların haqlı narazılıqlarına, çoxsaylı vətəndaş müraciətlərinə səbəb olur. Habelə, sahibkarların iş yükünü artırır, son nəticədə isə ölkəmizin biznes mühitinin münbitliyi ilə bağlı reytinqlərdə mövqeyinə neqativ təsir göstərir.

**2.2. Xarici dövlətlərin qanunvericiliyinin təhlili və beynəlxalq ekspertlərinin sahə ilə bağlı verdiyi rəylər:**

Avropa İttifaqının "Azərbaycanda pensiya islahatlarına dəstək – Faza 2" tvinninq layihəsinin icrası çərçivəsində sosial sığorta ödəmələrinin təyini, hesablanması və ödənilməsi istiqamətində Litva, İtaliya, Finlandiya, Belçika kimi Avropa ölkələrinin mütərəqqi təcrübəsinin araşdırılmasından əldə olunmuş məlumatlara əsasən sözügedən ölkələrdə sosial sığorta ödəmələrinin ayrı-ayrı növləri proaktiv qaydada həyata keçirilir. Layihənin normaları beynəlxalq mütərəqqi təcrübəyə uyğun Avropa ölkələrinin proaktiv təcrübəsindən, tətbiq etdikləri mexanizmlərdən istifadə edilərək işlənilmişdir, eyni zamanda bir neçə beynəlxalq təcrübəyə malik ekspertlərin təklifləri nəzərə alınmışdır.

## Bölmə 3. Proqnozlaşdırma

**3.1. Layihənin insan hüquq və azadlıqlarına təsiri**

Layihənin qəbulu ilə sığortaedənlər və sığortaolunanlar sənəd toplamaq və təqdim etmək öhdəliyindən azad olunacaq, müvafiq məlumatlar real vaxt rejimində MEİS-ə ötürüldükdən sonra 5 iş günü ərzində müavinətin ödənilməsi təmin ediləcəkdir. Belə ki, sosial sığorta əsaslı ödəmələrin həyata keçirilməsi sığortaedənlərə əlavə iş yükü ilə yanaşı, izafi maliyyə xərclərinə də səbəb olur. Layihə qəbul olunarsa, sığortaolunanların və sığortaedənlərin əhəmiyyətli dərəcədə iş yükü azalacaq, heç bir yerə müraciət etmədən müvafiq ödəmələri almaq imkanları olacaqdır. Habelə, bu sahənin ən ciddi problemi olan gecikmələrin qarşısı alınacaq və qanunvericiliklə müəyyən edilmiş müddətdə sığortaolunanlara sığorta ödəmələrinin çatdırılması təmin ediləcəkdir. Bu da böyük bir hissədə vətəndaş narazılığının qarşısını alacaqdır.

**3.2. Layihənin sosial təsiri**

Layihə Azərbaycan Respublikasının Konstitusiyasının 38-ci maddəsinin III hissəsi ilə müəyyən edilmiş sosial təminat hüququnun təmin edilməsinə xidmət edir.

**3.3. Layihənin iqtisadi təsiri**

Layihənin qəbul edilməsi ilə dövlət büdcəsinə heç bir maliyyə yükünün yaranmaması, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə isə 1.2 milyon manat maliyyə yükünün yaranacağı proqnozlaşdırılır.

**3.4. Layihənin ətraf mühitə təsiri**

Layihənin ətraf mühitə təsiri müəyyən olunmamışdır.

**3.5. Layihənin mühüm hesab edilən hər hansı digər birbaşa və ya dolayı təsiri**

Layihənin digər sahələrə mənfi təsiri müəyyən edilməmişdir.

**3.6. Layihənin tətbiqi (implementasiyası) üçün dövlət orqanları (qurumları) tərəfindən həyata keçirilməli olan əsas tədbirlər**

Layihənin tətbiqi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən xəstəlik vərəqinə dair məlumatların elektron göndərilməsinin həyata keçirilməsinə başlanılması zəruridir. Habelə sığortaedənlər tərəfindən ƏMAS-a sosial məzuniyyət əmrlərinin yerləşdirilməsi təmin edilməlidir.

## Bölmə 4. Təsirə məruz qalan normativ hüquqi aktların siyahısı

Layihənin qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"da dəyişiklik edilməsi zərurəti vardır.

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyinin Aparatının Sosial sığorta**
**və pensiya siyasəti şöbəsinin müdiri** **Elnur Abbasov**

**“Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsini hazırlayan şəxslərin**

**S İ Y A H I S I**

| **№** | Adı, soyadı, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| **1** | Kərimov Anar Mehman oğlu | Nazir müavini | (012) 526 01 01 (1021) |
| **2** | Abbasov Elnur Abbas oğlu | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri | (012) 526 01 01 (1603) |
| **3** | Əliyev Emil Tahir oğlu | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdir müavini | (012) 526 01 01 (1604) |
| **4** | Mirzəyeva Dürdanə Fərhad qızı | Nazirliyin Aparatının Hüquq şöbəsinin müdir müavini | (012) 526 01 01 (1902) |
| **5** | Təhməzli Siruz Bəhruz oğlu | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin Sosial sığorta siyasəti sektorunun müdiri | (012) 526 01 01 (1611) |
| **6** | Axundzadə Nəsirova Banuçiçək Tahir qızı | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin Sosial sığorta siyasəti sektorunun böyük məsləhətçisi | (012) 526 01 01 (1612) |
| **7** | Mirzəyev Əlipaşa Rauf oğlu | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Aparatının Fərdi uçota nəzarət və sosial sığorta departamentinin müdiri | (012) 434 55 86 |
| **8** | Paşayev Hüseyn Ələsgər oğlu | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Sosial sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialının direktoru | (012) 434 55 86 |

*Layihə*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"da dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 19 fevral tarixli 70 nömrəli və 1995-ci il 3 iyul tarixli 158 nömrəli qərarları; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2024-cü il 4 aprel tarixli 199 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissədə "gündən" sonra "aşağıda qeyd olunan növlər üzrə" sözləri əlavə edilsin, cümlənin sonunda nöqtə işarəsi iki nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1-ci və 4.2-ci bəndlər əlavə edilsin:

"4.1. xəstəlik:

4.1.1. ümumi xəstəlik;

4.1.2. peşə xəstəliyi.

4.2. xəsarət:

4.2.1. cinayət şübhəsi;

4.2.2. istehsalatda və ya məişətdə baş vermiş bədbəxt hadisə;

4.2.3. qəsdən öz sağlamlığına zərərin vurulması.".

2. 29-1-ci hissənin ikinci abzasında ", istehsalatda və ya məişətdə baş vermiş bədbəxt hadisə"sözləri "və ya xəsarət" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, ___ _________ 2024-cü il
№ ___

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat”da dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsinin qəbul olunması zərurətinin**

## ƏSASLANDIRILMASI

Sosial sığorta ödəmələrinin təyinatının, hesablanmasının və ödənilməsinin proaktiv qaydada həyata keçirilməsinin təmin edilməsi məqsədilə “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi hazırlanmışdır.

Bununla əlaqədar sığortaolunanın əmək qabiliyyətinin müvəqqəti itirilməsi halı cinayət hadisəsi, peşə xəstəliyi, özünə qəsd ilə bağlı olduqda ona müavinətin ödənilməsi bu iş üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya qərarı, təqdim edildə dayandırılır.

Hazırda qüvvədə olan qanunvericiliyin müddəaları ilə bu halları müəyyən etmək mümkün deyildir. Bu məqsədlə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat”da dəyişiklik edilərək, xəstəlik vərəqəsində peşə xəstəliyi, özünə qəsd və cinayət şübhəsi hallarının qeyd edilməsi təklif olunur. Beləliklə, peşə xəstəliyi, özünə qəsd, cinayət şübhəsi qeydi ilə göndərilən xəstəlik vərəqələri üzrə müavinətin ödənilməsi bu hadisə ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya qərarı təqdim edilənədək dayandırılacaq, sığortaolunanın və ya sığortaedənin məsuliyyəti müəyyən edilmədikdə isə müavinətin ödənilməsi həyata keçiriləcəkdir.

Layihə texniki xarakter daşıyır və dövlət büdcəsi qarşısında əlavə maliyyə öhdəliyi yaratmır.

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyinin Aparatının Sosial sığorta**
**və pensiya siyasəti şöbəsinin müdiri** **Elnur Abbasov**

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat”da dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsinə dair**

**MÜQAYİSƏLİ CƏDVƏL**

| | Mövcud redaksiya | Təklif edilən redaksiya |
|---|---|---|
| 1. | **II. Xəstəliyə və ya xəsarətə görə xəstəlik vərəqələrinin tərtib edilməsi**<br>4. Xəstəlik və ya xəsarət nəticəsində sığortaolunan əmək qabiliyyətini müvəqqəti itirdikdə xəstəlik vərəqələri həmin gündən tibb müəssisələrinin həkimləri tərəfindən elektron sənəd formasında tərtib edilir. | **II. Xəstəliyə və ya xəsarətə görə xəstəlik vərəqələrinin tərtib edilməsi**<br>4. Xəstəlik və ya xəsarət nəticəsində sığortaolunan əmək qabiliyyətini müvəqqəti itirdikdə xəstəlik vərəqələri həmin gündən **aşağıda qeyd olunan növlər üzrə** tibb müəssisələrinin həkimləri tərəfindən elektron sənəd formasında tərtib edilir**:**<br>**4.1. xəstəlik:**<br>**4.1.1. ümumi xəstəlik;**<br>**4.1.2. peşə xəstəliyi.**<br>**4.2. xəsarət:**<br>**4.2.1. cinayət şübhəsi;**<br>**4.2.2. istehsalatda və ya məişətdə baş vermiş bədbəxt hadisə;**<br>**4.2.3. qəsdən öz sağlamlığına zərərin vurulması.** |
| 2. | 29-1. Xəstəlik vərəqələri sığortaolunanların müraciəti əsasında tibb müəssisələri tərəfindən elektron sənəd formasında tərtib edilir.<br>Xəstəlik vərəqələri əmək qabiliyyətini müvəqqəti itirmiş şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (FİN), sosial sığorta nömrəsi (SSN) (əgər vardırsa), əmək qabiliyyətinin müvəqqəti itirilmə növü (xəstəlik, istehsalatda və ya məişətdə baş vermiş bədbəxt hadisə, karantin, xəstəyə qulluq, sanatoriya-kurort müalicəsi və ya hamiləlik və doğuş), doğuşla əlaqədar olduqda doğuş tarixi, xəstəyə qulluqla əlaqədar olduqda həmin xəstənin soyadı, adı, atasının adı, FİN-i, qohumluq dərəcəsi, diaqnozu, karantinlə əlaqədar olduqda karantinə səbəb olan xəstəliyin adı, xəstəliklərin beynəlxalq təsnifatına uyğun olaraq | 29-1. Xəstəlik vərəqələri sığortaolunanların müraciəti əsasında tibb müəssisələri tərəfindən elektron sənəd formasında tərtib edilir.<br>Xəstəlik vərəqələri əmək qabiliyyətini müvəqqəti itirmiş şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (FİN), sosial sığorta nömrəsi (SSN) (əgər vardırsa), əmək qabiliyyətinin müvəqqəti itirilmə növü (xəstəlik **və ya xəsarət**, ~~istehsalatda və ya məişətdə baş vermiş bədbəxt hadisə,~~ karantin, xəstəyə qulluq, sanatoriya-kurort müalicəsi və ya hamiləlik və doğuş), doğuşla əlaqədar olduqda doğuş tarixi, xəstəyə qulluqla əlaqədar olduqda həmin xəstənin soyadı, adı, atasının adı, FİN-i, qohumluq dərəcəsi, diaqnozu, karantinlə əlaqədar olduqda karantinə səbəb olan xəstəliyin adı, xəstəliklərin beynəlxalq təsnifatına uyğun olaraq əsas diaqnoz, yanaşı xəstəliklər, ağırlaşmalar və xəstəlik vərəqələrinin tərtib edilməsinə əsas verən |

| | | |
|---|---|---|
| | əsas diaqnoz, yanaşı xəstəliklər, ağırlaşmalar və xəstəlik vərəqələrinin tərtib edilməsinə əsas verən digər hallar, xəstəlik vərəqəsinin başlama və bitmə tarixləri, onu verən tibb müəssisəsinin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), xəstəlik vərəqəsinin uzadılma tarixi, davamı olması barədə qeyd, iş yeri, rejim, rejim pozuntusuna dair qeyd, sanatoriya-kurort müalicəsi ilə əlaqədar olduqda yollayışın başlandığı və bitdiyi vaxt, müvəqqəti olaraq başqa işə keçirilmə barədə qeyd, olduğu halda əlilliyin qiymətləndirilməsinin nəticələrinə dair məlumatlar əlavə edilməklə səlahiyyətli həkimlər tərəfindən elektron sənəd formasında tərtib edilir. | digər hallar, xəstəlik vərəqəsinin başlama və bitmə tarixləri, onu verən tibb müəssisəsinin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), xəstəlik vərəqəsinin uzadılma tarixi, davamı olması barədə qeyd, iş yeri, rejim, rejim pozuntusuna dair qeyd, sanatoriya-kurort müalicəsi ilə əlaqədar olduqda yollayışın başlandığı və bitdiyi vaxt, müvəqqəti olaraq başqa işə keçirilmə barədə qeyd, olduğu halda əlilliyin qiymətləndirilməsinin nəticələrinə dair məlumatlar əlavə edilməklə səlahiyyətli həkimlər tərəfindən elektron sənəd formasında tərtib edilir. |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"da dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı layihəsini hazırlayan şəxslərin**

**S İ Y A H I S I**

| № | Adı, soyadı, atasının adı | Vəzifəsi | Əlaqə telefonu |
|---|---|---|---|
| **1** | Kərimov Anar Mehman oğlu | Nazir müavini | (012) 526 01 01 (1021) |
| **2** | Abbasov Elnur Abbas oğlu | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri | (012) 526 01 01 (1603) |
| **3** | Əliyev Emil Tahir oğlu | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdir müavini | (012) 526 01 01 (1604) |
| **4** | Mirzəyeva Dürdanə Fərhad qızı | Nazirliyin Aparatının Hüquq şöbəsinin müdir müavini | (012) 526 01 01 (1902) |
| **5** | Təhməzli Siruz Bəhruz oğlu | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin Sosial sığorta siyasəti sektorunun müdiri | (012) 526 01 01 (1611) |
| **6** | Axundzadə Nəsirova Banuçiçək Tahir qızı | Nazirliyin Aparatının Sosial sığorta və pensiya siyasəti şöbəsinin Sosial sığorta siyasəti sektorunun böyük məsləhətçisi | (012) 526 01 01 (1612) |
| **7** | Mirzəyev Əlipaşa Rauf oğlu | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Aparatının Fərdi uçota nəzarət və sosial sığorta departamentinin müdiri | (012) 434 55 86 |
| **8** | Paşayev Hüseyn Ələsgər oğlu | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Sosial sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialının direktoru | (012) 434 55 86 |